# Çanaqqala qəhrəmanının oğlu ilə söhbət (Sənədli hekayə)

**Mart ayının ortaları idi. Od tutub qırmızı atəşlə yanan, şəfəqin qırmızı rəngilə işıqlanan qüvvəsi ilə görünməyə can atan günəşin üzünü buludlar örtməsə də elə bil üzünə nazik bir pərdə çəkilmişdi.Sanki pərdəni dəf etməyə günəşin gücü çatmır, çırpınırdı. Çünki günəş görünən kimi buludlar üzünü örtməyə çalışırdılar. Ona görə də hava insana elə bil cansıxıcı təsir bağışlayırdı.**

Azərbaycandan Türkiyə Cumhuriyyətinin İstanbul şəhərində keçirilən Beynəlxalq Konfransda iştirak etmək üçün gələn professor küçəyə çıxan kimi otelin qarşı tərəfindəki kətilin üstündə oturan ayaqqabı silənə tərəf gələrək onun qarşısında dayandı.

Başını aşağı salmış qoca kişi başını qaldırıb qarşısında dayanan adama baxmır, və deyəsən heç bunu lazım da bilmirdi. Adəti idi. Onun yanına ayaqqabı sildirməyə gələnlərin üzünə baxmaz,yavaş-yavaş öz işinə başlar, dayanıb onu gözləyənin tələsib-tələsmədiyinin fərqinə belə varmazdı.Amma bu dəfə nədənsə adətinin əksinə olaraq başını qaldırıb müştərinin üzünə baxdı.

Tələsirsinizmi, abi?

Hə, hə, tələsirəm, yoldaşlar məni gözləyirlər. Müştərinin sözü deyəsən heç ayaqqabı silən adama təsir etmədi. Elə öz işində idi. Səbri tükənmiş müştəri bir az səsini qaldırmalı oldu.

Ay kişi, sən mənim ayaqqabılarımı təmizləyəcəksən, ya yox? Axı mən tələsirəm.

Ayaqqabı silən başını qaldırıb elə məhzun, sanki ağlamağa müntəzir olan gözlərlə müştərinin üzünə baxdı ki, müştəri bu sözləri deməyinə sanki peşman oldu.

- Mən düz 50 ildir ki, burada otururam. Bütün İstanbulu gəzsən, mənim kimisini tapa bilməzsən. Bu sözlər deyəsən müştərinin ürəyini tamam yumşaltmışdı:

- Bu qədər öz işini peşəsini, işini yüksək sənətkarlıqla bacaran bir adamsan, bəs nə üçün başqa bir sənət sahibi olmamısan?

-Qoca kişi dərindən ah çəkdi:

-Qoymadılar abi, qoymadılar. Atamı əlimizdən aldılar. Ondan sonra güzəranımız pozuldu, anam, bacılarım mənim ümidimə qaldılar. Bir tikə çörək qazanmaq üçün çalışmaq lazım idi. Onbir yaşından dərdim yalnız bir tikə çörək oldu. İndi sən de abi, bu yaşında mən nə edə bilərdim. Anam, iki bacım məndən ümidli ikən, hansı savad almaqdan, özümə hansı bir iş qurmaqdan danışa bilərdim.

Müştəri isə elə bil daha tələsmir, qoca kişini diqqətlə dinləyirdi.

Atanıza nə oldu ki? Kimlər onu sizin əlinizdən aldılar?

Uzun əhvalatdı abi: Bu, Çanaqqala döyüşü zamanı olub. Atam həmin döyüşlərdə qəhrəmanlıq göstərib, Vətən uğrunda həlak olub.

Çanaqqala sözünü eşidən müştərinin fikri bir anlığa uzaqlara getdi....

**1915-16-cı illərdə bir qisim qəbskarların türk torpaqlarına qənim kəsildikləri barədə yazılı mənbələrdən oxuduqlarını xatırladı. Dünya tarixində, eləcə də türk dünyası tarixində ingilis- fransız donanmasının Çanaqqala boğazına girməsi qəhrəman türk əsgərləri tərəfindən məhv edilməsi, və bu döyüşün türk dünyası tarixində bir şərəf döyüşü olması yadınadüşdü. Nəhayət müştəri dərin fikirlərdən ayılaraq qoca kişiyə doğru əyildi:**

Atanızın adı nə olub? Onun bu qəhrəmanlığı müqabilində bir fəxri adı olubmu?

Hardan abi? Onun adı heç yerdə yoxdur. Amma o həmin döyüşlərdə qəhrəmanlıqla vuruşub, rəşadət göstərib. Bütün bunları, biz onun anama yazdığı məktubundan oxumuşuq.Cəmisi iki məktubu olub. Özü də gündəlik şəklində.

Niyə bəs bu barədə bir yerə müraciət edib heç nə bildirməmisən?

Necə edim abi? Əvvəllər uşaq olmuşam, heç nə bacarmamışam. Anam da bizi çox tez tərk etdi. Atamın ölümünnən sora çox yaşaya bilmədi. İki kiçik qızcığaz, bir də mən. Kimsəsiz qaldıq. Heç kəs bizi arayıb-axtarmadı. İndi də savadsız qoca kişiyəm. Allahın bir hərfini belə tanımıram.

Bəs bacıların?

Abi onlardan da neçə illərdir xəbər-ətər yoxdur. İkisi də ailə qurub, kocaları ilə uzaq məmləkətlərdə yaşamağa getdilər. Mən də taleyimlə razılaşıb beləcə yaşamağa başladım.

**Bütün bunlara ürək ağrısı ilə qulaq asan professor dərindən ah çəkdivə özü-özünə söyləməyə başladı. Sən bir işə bax. Canını Vətən yolunda fəda etmiş bir qəhrəmanın təkcə yadigarı evsiz-eşiksiz küçələrdə yaşayır. Öz- özlüyündə üsyan etdi: - Ola bilməz, bu xalq öz qəhrəmanını unuda bilməz. Bəs bu necə olur? Məgər bu kimsəsiz qoca bu xalqın övladı deyilmi?**

Sıxılan ürəyini əlləri ilə ovuşduran professor qoca kişiyə sarı əyildi:

Bəs sənə heç kömək etmək istəyən olmayıbmı? Bəlkə sən özün istəməmisən?

Siz nə danışırsınız? Çoxlarına dərdimi danışmışam. Hamı da yanımdan saymazyana ötüb keçib. Əvvəllər çox istəyirdim kimsə mənə kömək etsin. Amma sonralar yoruldum, usandım artıq neçə illərdir ki bu barədə susuram. Bilmirəm necə oldusa sizə ürəyimi açdım.

Heç olmasa övladların varmı?

Abi, mən həyatdan, dünyadan, taleyindən küsmüş adamam. Ailə, uşaq mənim nəyimə lazımdır.

Birdən o susdu, və çox laqeyd şəkildə: - mən işimi qurtardım, abi, gedə bilərsiniz, - dedi. Professor isə ordan uzaqlaşa bilmirdi. Elə bil hər şey yadından çıxmışdı. Uzaq, dost ölkədən gəlməsini, bu gün universitetlərin birində Azərbaycan-türk xalqlarının folkloru haqqında edəcəyi mühazirə belə yadından çıxmışdı. O, indi yalnız bu qoca kişiyə kömək etmək haqqında düşünürdü. Heç olmasa ömrünün sonlarını sevinclə yaşasın.

Saat neçəyə qədər burda oturursunuz?

Gedəcək yerimmi var abi? Nə vaxta qədər istəsəniz burdayam.

Təqribən6-7 saatdan sonra qoca kişi səhər ona ayaqqabısını təmizlətdirən adamın bir nəfər ilə ona yaxınlaşdığını gördü. Adamın əlində dəftər-qələm vardı. Qoca kişi onlara təəccüblə baxdı:

Nə olub abi?

Bu adam sənə kömək edəcək və sən atanın Vətən uğrunda göstərdiyi qəhrəmanlığa görə ona Vətənimizin göstərdiyi qayğının nəticəsini görəcəksən.

Kişinin gözlərinə elə bil işıq gəldi.

Sağ olun qardaş, çox sağ olun. Heç olmasa öləndə həsrətlə ölmərəm.

**Onun şirin-şirin "qardaş" deməsi professorun gözlərini yaşartdı. Qoca kişi isə göz yaşlarına boğula-boğula, - mənə bundan sonra heç nə lazım deyil, mən yalnız atamın adının işıqlanmasını istəyirəm,təzədən bir də: - çox sağ olun qardaş, - dedi.**



Dilşad NÜSRƏTQIZI

Azad Azərbaycan.- 2023- cü il.- 15 iyun.- S. 7.